UOT-811.11-112
Səhifə: 230-240
https://doi.org/10.59849/2663-8967.2026.2.230

Günay Mehrəliyeva
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0000-0003-4923-8004
gunay-m2014@yandex.com


ŞƏXSSİZ KONSTRUKSİYALARIN KOQNİTİV, DİSKURSİV VƏ VALENTLİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə şəxssiz konstruksiyalar koqnitiv dilçilik, diskurs təhlili və valentlik nəzəriyyəsi çərçivəsində araşdırılır. Tədqiqatın əsas məqsədi şəxssiz konstruksiyaların yalnız sintaktik reduksiya kimi deyil, semantik iştirakçıların diskurs daxilində yenidən profilləşdirilməsi kimi izah edilməsinin daha adekvat olduğunu göstərməkdir. Məqalədə A-, T- və R-şəxssizlərin funksional-semantik xüsusiyyətləri, eləcə də MAN-impersonals və 3PL-impersonals arasında diskursiv və referensial fərqlər təhlil edilir. Xüsusi diqqət deyksis, kohezivlik, anaforik əlaqələr və tematik proqressiyanın şəxssiz konstruksiyaların interpretasiyasına təsirinə yönəldilir. Mikromətnlərin təhlili göstərir ki, sintaktik səviyyədə agent və ya digər aktantlar görünməsə də, onların koqnitiv izləri qorunur və situasiyanın konseptual modeli tam qalır. Bu baxımdan şəxssiz konstruksiyalar "valentliyin sıfırlanması" deyil, "valentliyin yenidən profilləşdirilməsi" kimi dəyərləndirilir. Nəticədə müəyyən olunur ki, şəxssiz konstruksiyalar diskurs daxilində informasiya bölgüsünü, perspektiv seçimini və emosional məsafələndirməni tənzimləyən mühüm vasitələrdir və dilin həm koqnitiv, həm də funksional təbiətini əks etdirir.

Açar sözlər: *şəxssiz konstruksiyalar, valentlik, diskurs təhlili, koqnitiv dilçilik, deyksis, referensiallıq, agentivlik.*

Giriş: Şəxssiz konstruksiyalar dilin struktur, semantik və diskurs səviyyələrinin qarşılıqlı əlaqəsində formalaşan mürəkkəb dil hadisələrindən biridir. Bu konstruksiyalar xüsusilə hadisənin iştirakçılarından birinin – əsasən agentin – diskurs daxilində arxa plana keçirilməsi, qeyri-müəyyənləşdirilməsi və ya tamamilə ifadə olunmaması ilə səciyyələnir. Müasir tipoloji yanaşmalarda şəxssizlik vahid və sabit kateqoriya kimi deyil, müxtəlif semantik və diskurs xüsusiyyətlərinin – agentivlik, mövzu mərkəzliliyi (topicality) və referensiallıq – mərhələli şəkildə zəifləməsi nəticəsində formalaşan funksional sahə kimi şərh olunur (Malchukov & Ogawa, 2011; Creissels, 2024). Malchukov və Ogawa *"impersonal"* – *şəxssiz* konstruksiyalar üçün məhz bu xüsusiyyətləri əsas götürərək semantik xəritə modeli təklif edirlər.



Cədvəl 1. Şəxssiz konstruksiyaların semantik-tipoloji modeli (Malchukov & Ogawa, 2011, s.19–56)

- ***"A-impersonals"*** *(agentivity-oriented impersonals) – A-şəxssizlər* əsasən **agentivlik və mərkəzi/agentə yaxın (animate) xüsusiyyətlərinə** həssas konstruksiyalardır. Bu tipdə agent arxa plana keçirilir (agent demotion) və hadisənin iştirakçı xüsusiyyətləri zəiflədilir. Deməli, bu tip konstruksiyalar agentin mövcud olduöunu qəbul edir, lakin onu konkretləşdirmir, yəni *"hərəkəti icra edən var, amma kim olduğu vacib deyil"* prinsipinə əsaslanır.
- ***"T-impersonals"*** (*topicality-oriented impersonals*) – *T-şəxssizlər* diskursun *mövzulaşdırma/mövzu mərkəzliliyi* – ***"topicality"*** **xüsusiyyətinə həssas** konstruksiyalar hesab olunur. Bu konstruksiyalar mövzu strukturunun dəyişməsi və ya zəifləməsi ilə bağlıdır və çox vaxt **A-şəxssizlik ilə R-şəxssizlik arasında keçid funksiyası vəzifəsini** yerinə yetirir. T-impersonals konstruksiyalarda əsas məslə agent deyil, diskursun fokusudur; *"It is said that he is ill" (Deyilir ki, o xəstədir)* cümləsinə nəzər yetirdikdə əsas məqsəd agentin deyil, məlumatın ötürülməsi olduğu ön plana çıxır. Deməli, bu konstruksiya diskursda diqqəti agentdən uzaqlaşdırıb hadisəyə yönəldir.
- ***"R-impersonals"*** *(referentiality-oriented impersonals) – R-şəxssizlər* isə əsasən **referensiallıq və müəyyənlik xüsusiyyətlərinə həssas** konstruksiyalardır. Bu konstruksiyalarda mübtəda qeyri-referensial və ya qeyri-müəyyən xarakter daşıyır.

Bu tipoloji model şəxssiz konstruksiyaların yalnız sintaktik fenomen olmadığını, eyni zamanda semantik və diskurs faktorları ilə əlaqəli kompleks struktur olduğunu göstərir. Bu yanaşma xüsusilə onu ortaya qoyur ki, şəxssizlik hadisəsi çox vaxt predikatın arqument strukturunun transformasiyası ilə bağlıdır və bu transformasiya ya *valentliyin sıfırlanması*, ya da onların diskurs daxilində yenidən təşkil olunması *valentliyin yenidən profilləşdirilməsi* vasitəsilə reallaşır. *Valentliyin sıfırlanması* müasir tipoloji və formal yanaşmalarda predikatın arqumentin struktur və semantik səviyyədə reduksiyası kimi izah olunur. Bu proses zamanı predikatın tələb etdiyi əsas iştirakçılardan biri, xüsusilə aqent, yalnız sintaktik səviyyədə deyil, həm də semantik təmsildə deaktivləşdirilir və nəticədə konstruksiya daha aşağı valentlikli struktura çevrilir. Məsələn, passiv və antikausativ konstruksiyalar bu tip reduksiyanın klassik nümunələridir. *Valentliyin yenidən profilləşdirilməsi* isə predikatın arqument strukturunun formal olaraq qorunması, lakin bu arqumentlərin diskurs-pragmatik və informasiya strukturunda yenidən təşkil olunması ilə xarakterizə olunur. Bu halda iştirakçılar silinmir, əksinə onların "önəmlilik və mövzu mərkəzliliyi" statusu dəyişir. Beləliklə, valentliyin sıfırlanması predikatın arqument strukturunda iştirakçının həm struktur, həm də semantik səviyyədə eliminasiyası ilə nəticələnən reduktiv proses olduğu halda, valentliyin yenidən profilləşdirilməsi həmin iştirakçıların saxlanılaraq yalnız diskurs-pragmatik iyerarxiyada yenidən mövqeləndirilməsi ilə səciyyələnir.

Şəxssiz konstruksiyalarla bağlı mühüm semantik sahələrə fiziki hissiyyat, emosional vəziyyət, ekzistensial təcrübə, hərəkət, mənsubluq və uyğunluq, əlçatmazlıq və benefaktivlik daxildir. Bu sahələrdə çox vaxt hadisə iki iştirakçılı konseptual struktur üzərində qurulur, lakin onlardan biri dil səthində zəiflədilir və ya açıq şəkildə kodlaşdırılmır. Bu cəhət şəxssizliyin valentliklə əlaqəsini araşdırmaq üçün əlverişli nəzəri zəmin yaradır (Goldberg, 2019).

Bu tədqiqatın məqsədi şəxssiz konstruksiyaları koqnitiv və diskursiv baxımdan təhlil etmək, onların valentlik strukturu ilə əlaqəsini göstərmək və Man-impersonals ilə 3PL-impersonals arasında funksional fərqləri sistemləşdirməkdir. Eyni zamanda, mətn daxilində deyktik elementlərin, koheziv vasitələrin və aktant münasibətlərinin şəxssiz konstruksiyaların interpretasiyasına necə təsir etdiyi göstərilir.

Deyksis anlayışının klassik izahı Karl Brugmannın 1904-cü il əsərinə gedib çıxır və sonrakı diskurs araşdırmaları üçün terminoloji baza rolunu oynayır. **Deyksis** termini qədim yunan mənşəli olub, dil vahidləri və ya jestlər vasitəsilə kommunikativ situasiyanın elementlərinə işarə etmə və onları kontekst daxilində müəyyənləşdirmə üsulunu ifadə edir. Bu anlayış Deixis çərçivəsində danışan, dinləyən, zaman və məkan kimi əsas diskurs komponentlərinin referensial şəkildə identifikasiyasını təmin edən mühüm mexanizm kimi qiymətləndirilir.

Deyktik ifadələrin interpretasiyası yalnız dil vahidlərinin semantik xüsusiyyətləri ilə məhdudlaşmır; bu proses eyni zamanda diskurs mühiti və iştirakçıların koqnitiv mövqeyi ilə sıx

bağlıdır (Saeed, 2023; Bekouche, 2024). Bu baxımdan deyksis yalnız referensial mexanizm deyil, həm də diqqətin yönləndirilməsi və informasiya strukturunun təşkilində mühüm rol oynayan koqnitiv proses kimi çıxış edir.

Metodika. Bu tədqiqat koqnitiv dilçilik, diskurs təhlili və valentlik nəzəriyyəsi sahələrində son elmi yanaşmalara əsaslanan keyfiyyət yönümlü və nəzəri əsaslı tədqiqat dizaynını qəbul edir (Evans & Green, 2006; Goldberg, 2019). Tədqiqatın əsas məqsədi şəxssiz konstruksiyaları yalnız sintaktik reduksiya nümunələri kimi deyil, dil istifadəsi prosesində iştirakçı rollarının dinamik şəkildə yenidən təşkilini əks etdirən koqnitiv və diskursiv motivasiyalı strukturlar kimi araşdırmaqdır. Tədqiqat interpretativ-analitik paradiqma çərçivəsində həyata keçirilir ki, bu da dil hadisələrinin statistik ümumiləşdirmədən daha çox kontekstual məlumatlar əsasında dərin təhlilinə imkan verir. Bu yanaşma xüsusilə şəxssiz konstruksiyaların öyrənilməsi üçün məqsədəuyğundur, çünki onların interpretasiyası böyük ölçüdə diskurs konteksti, koqnitiv perspektiv və praqmatik funksiyalardan asılıdır. Tədqiqatın empirik bazasını ingilis dilindən götürülmüş dil nümunələri, eləcə də ədəbi mikromətnlər təşkil edir. Ədəbi diskursun seçilməsi onun kontekstual, emosional və koqnitiv baxımdan zəngin olması ilə əlaqədardır; bu isə gizli iştirakçı strukturlarının və konseptual uyğunluqların daha incə şəkildə təhlilinə imkan yaradır. Seçilmiş mikromətnlər agentivlik, referensiallıq və topicality kimi şəxssiz konstruksiyalar üçün əsas olan xüsusiyyətlərin müxtəlifliyini nümayiş etdirmə potensialına görə analiz edilmişdir.

Analitik çərçivə üç qarşılıqlı əlaqəli səviyyə üzrə qurulmuşdur: semantik, diskursiv və koqnitiv. Semantik səviyyədə agentivlik, referensiallıq və iştirakçı rolları araşdırılır. Diskurs səviyyəsində topicality, koheziya, anaforik əlaqələr və tematik proqressiya təhlil olunur. Koqnitiv səviyyədə isə konseptual profilləşdirmə, mental təmsil və perspektiv quruculuğu kimi məsələlər diqqət mərkəzində saxlanılır. Bu çoxsəviyyəli yanaşma tədqiq olunan fenomenin kompleks şəkildə izahını təmin edir.

Tədqiqatın etibarlılığını təmin etmək məqsədilə analiz çoxsaylı nümunələr və dillərarası müqayisə əsasında həyata keçirilmişdir. Interpretasiyalar mövcud nəzəri çərçivələrə əsaslanır və müasir elmi ədəbiyyatla dəstəklənir (Goldberg, 2019). Tədqiqatın əhəmiyyəti isə nəzəri triangulyasiya, analitik ardıcıllıq və empirik material ilə konseptual interpretasiyalar arasında uyğunluğun təmin edilməsi vasitəsilə əldə olunur.

Ümumilikdə, tətbiq olunan metodologiya tipoloji, koqnitiv və diskursiv yanaşmaları inteqrasiya edərək şəxssiz konstruksiyaların çoxölçülü və kompleks dil hadisəsi kimi təhlili üçün möhkəm nəzəri-metodoloji baza yaradır.

Şəxssiz konstruksiyaların tipologiyası ilə bağlı müasir yanaşmalar onların subyektin funksional xüsusiyyətlərinin itirilməsi əsasında şərh edilməsini təklif edir. Malchukov və Ogawa göstərirlər ki, kanonik subyekt adətən referensial, müəyyən, mövzulaşdırma/ mövzu mərkəzliliyi, mərkəzi/agentə yaxın (animate) və icraedən (agentive) olur; şəxssiz konstruksiyalar isə bu xüsusiyyətlərin bəzilərini zəiflədir və ya aradan qaldırır (Malchukov & Ogawa, 2011). Məhz buna görə A-, T- və R-şəxssizlər eyni xətt üzrə yerləşən, lakin fərqli xüsusiyyətlərə həssas olan konstruksiya tipləri kimi görünür.

Denis Creissels də şəxssiz və əlaqəli konstruksiyaların tipoloji baxımdan müxtəlif dillərdə əsasən agentin defokuslaşdırılması və ya fonlaşdırılması ilə bağlı olduğunu vurğulayır. Bu yanaşma "subyektin açıq təqdim olunmaması" və "hadisənin xəbər-arqument əsaslı qurulması" fikri ilə üst-üstə düşür (Creissels, 2024).

Şəxssiz konstruksiyalar daxilində xüsusi yer tutan *MAN-impersonals və 3PL-impersonals* qeyri-müəyyən insan referensiyasını ifadə edən iki əsas struktur tipidir. Bu konstruksiyalar dilin referensial mexanizmləri ilə diskurs strategiyaları arasında keçid rolunu oynayır və agentin açıq şəkildə kodlaşdırılmaması ilə xarakterizə olunur (Cabredo Hofherr, 2017).

- ***MAN-impersonals*** *qeyri-müəyyən, ümumiləşdirilmiş insan subyektini ifadə edən əvəzliklərdir. Bu tip konstruksiyalarda subyekt konkret şəxsə deyil,* ***"ümumi insan"a*** *işarə edir. Məsələn:*

One should respect the law.

You never know what will happen. (burada "you" konkret deyil)

- *3PL-impersonals isə felin **3-cü şəxsin cəm forması** ilə qurulan və subyekti açıq göstərilməyən və agenti qeyri-müəyyən şəkildə ifadə edən, lakin danışan və dinləyəni diskursdan kənarda saxlayan konstruksiyalardır (Malamud, 2012, s.348). Məsələn:*

They say that he is rich.
They built this road in 1990.

Xüsusiyyət	***MAN-impersonals***	***3PL-impersonals***
Referensiya	Ümumi/qeyri-müəyyən	Qeyri-müəyyən
Diskurs rolu	İnklüziv	Eksklüziv
Koqnitiv model	Kollektiv təcrübə	Xarici agent
İstifadə sahəsi	Danışıq dili	Formal diskurs
İnterpretasiya	Ümumiləşdirici	Mənbə yönümlü

Cədvəl 2. MAN-impersonals və 3PL-impersonals konstruksiyaların xüsusiyyətləri

Malamud (2012) göstərir ki, *man, one, you və du* kimi formalar digər şəxs və şəxssiz əvəzliklərə analoji olaraq, semantik denotasiyaları qarşılıqlı şəkildə birləşərək həmin əvəzliklərin ümumi denotativ strukturunu formalaşdıran xüsusiyyətlər toplusundan ibarətdir (Malamud, 2012).

Bağlı dəyişənə (*bound-variable*) xas interpretasiyaların müşahidə olunduğu nümunələr istisna edildikdə, sözügedən dörd impersonal/şəxssiz əvəzliyin semantik quruluşunda iki əsas komponentin iştirak etdiyi müəyyən edilir:

- **indeksik komponent**, yəni danışıq situasiyasına və iştirakçılarına bağlılığı təmin edən element;
- **qeyri-müəyyən dəyişənə bənzər komponent**, yəni konkret referentin müəyyənləşdirilmədiyi və ümumiləşdirilmiş referens yaradan element (Malamud, 2012).

Patricia Cabredo Hofherr -in tədqiqatları və onun rəhbərlik etdiyi tipoloji araşdırmalar şəxssiz konstruksiyaların, xüsusilə də R-impersonalların referensiallıq və insan referensiyası baxımından sistemli şəkildə təsnifini təqdim edir (Cabredo Hofherr, 2015). Bu çərçivədə *man, one, you, du* kimi şəxssiz əvəzliklərin semantik və diskurs xüsusiyyətləri geniş şəkildə təhlil olunur və onların vahid, tam qeyri-referensial kateqoriya təşkil etmədiyi əsaslandırılır.

Müəllif göstərir ki, bu əvəzliklər kontekstdən asılı olaraq müxtəlif referensial interpretasiyalar ala bilir və onların funksional-semantik potensialı *ümumiləşdirici (generic), epizodik (episodic) və spesifik (specific)* istifadə tipləri vasitəsilə reallaşır (Cabredo Hofherr, 2004; 2017). Bu isə şəxssiz formaların yalnız qeyri-müəyyən referens ifadə edən vasitələr olmadığını, əksinə diskurs daxilində yüksək dərəcədə referensial elastiklik nümayiş etdirən və kommunikativ məqsədlərə uyğun olaraq fərqli semantik rollar yerinə yetirən struktur vahidlər olduğunu göstərir.

MAN-impersonals və 3PL-impersonals: semantik-diskursiv fərqlər

MAN-İMPs və 3PL-İMPs hər ikisi impersonal insan referensiyasını ifadə etsə də, onların diskurs davranışı eyni deyil. MAN-İMPs ümumiləşdirici, kvazi-generik və inklüziv interpretasiyalara daha açıq olur; buna görə onlar qeyri-assertiv, potensial, şərti, deontik, gələcək və neqativ kontekstlərdə daha rahat işlənir. Bu müşahidə formal semantika ədəbiyyatında man və digər impersonal indeksiklərin *ümumi və qeyri-müəyyən* istifadələri ilə uyğunlaşır.

3PL-İMPs isə adətən danışan və dinləyəni hadisə çərçivəsindən kənarda saxlayır və üçüncü şəxsin köməyi ilə agenti arxa plana keçirir. Buna görə onlar daha çox habitual və ya spesifik, lakin identifikasiyası vacib olmayan agent kontekstlərində qeydə alınır. Bu fərq diskurs baxımından olduqca əhəmiyyətlidir: MAN-İMPs potensial inklüzivlik yaradırsa, 3PL-İMPs eksklüziv məsafə yaradır (Malamud, 2012; Cabredo Hofherr, 2017).

Bu baxımdan "English is not spoken here" kimi nümunələr agenti diskursdan kənarlaşdırmaqla məkan və normativlik üzərində fokus qurur. Burada əsas informativ yük "who speaks" deyil, "what is the linguistic condition of this place" olur. Bu, şəxssizliyin yalnız sintaktik deyil, həm də koqnitiv fokuslaşma mexanizmi olduğunu göstərir.

Dil vahidləri konseptual səviyyədə xəbər–arqument münasibətləri əsasında təşkil olunur. Bu baxımdan isimlər referentləri və ya diskurs daxilində identifikasiya olunan vahidləri (entities)

ifadə etdiyi halda, fellər həmin vahidlər arasında münasibətləri quraraq predikativ əlaqəni təmin edir. Beləliklə, dil strukturunda obyektlər və münasibətlər qarşılıqlı şəkildə konseptuallaşdırılır.

Valentlik nəzəriyyəsi və şəxssiz konstruksiyalar.

Valentlik nəzəriyyəsi predikatın tələb etdiyi iştirakçıların və sintaktik mövqelərin sistemli təsvirinə imkan verir. Ənənəvi olaraq valentlik daha çox feillərlə bağlansa da, Sommerfeldt və Schreiber-in işləri göstərir ki, sifət və isimlər də valentlik potensialına malikdir. Onların "Wörterbuch zur Valenz und Distribution deutscher Adjektive" əsəri adjectival valentliyin leksik-semantik baxımdan necə qurulduğunu nümayiş etdirən əsas mənbələrdəndir (Sommerfeldt & Schreiber, 1977). Bu yanaşma *proud of his parents, keen on debate, protection from disease* kimi nümunələrin nəzəri əsasını möhkəmləndirir. Deməli, valentlik təkcə feilə aid formal çərçivə deyil; o, predikativliyin daha geniş fenomeni kimi isim və sifət strukturlarında da özünü göstərir. Bununla belə, şəxssiz konstruksiyalarda ən çox diqqət felin tələb etdiyi aktantların sayının və göründüyünün dəyişməsinə yönəlir.

Şəxssiz konstruksiyalar valentlik baxımından tez-tez belə vəziyyətlər yaradır: semantik aktant mövcuddur, lakin sintaktik aktant səviyyəsində ya kodlaşdırılmır, ya da zəifləmiş formada təqdim olunur. Məsələn, təbiət hadisələrini bildirən avalent fellərdə səthdə iştirakçı görünməsə də, koqnitiv modeldə situasiya və onun təcrübələnməsi mövcuddur. Digər tərəfdən, benefaktiv, instrumental, resultativ və medial modifikasiyalar göstərir ki, predikatın valentlik çərçivəsi diskurs məqsədindən asılı olaraq genişlənə və ya darala bilir (Evans & Green, 2006).

Bu səbəbdən şəxssiz konstruksiyaları "valentliyin sıfırlanması" kimi yox, daha çox "valentliyin yenidən profilləşdirilməsi" kimi təqdim etmək daha məqsədəuyğundur (Langacker, 2008). Burada *agent, experiencer, patient və benefactive* kimi rolların hamısı eyni dərəcədə səthdə görünmür; lakin koqnitiv səviyyədə onların izi qalır. Məhz bu fərq sintaktik valentliklə semantik valentlik arasında ayrımı aydın göstərir.

Diskurs, deyksis və koqnitiv interpretasiya:

Diskursun koherentliyi yalnız qrammatik bağlılıqdan ibarət deyil; o, referensial izlənmə, deyktik koordinatlar, tematik proqressiya və anaforik əlaqələr vasitəsilə qurulur (Van Dijk, 2014). Şəxssiz konstruksiyalar bu sahədə xüsusilə maraqlıdır, çünki onlar çox vaxt danışan, dinləyən və agent arasında məsafəni yenidən təşkil edir. Bu zaman şəxsi əvəzliklər, yer və zaman zərfləri, modal konstruksiyalar və təkrarlar diskurs daxilində şərh istiqamətini müəyyənləşdirir.

Brugmanna görə, **deyksis** dil vahidlərinin (xüsusilə demonstrativ əvəzliklərin) danışıq situasiyasına istinad edərək məna qazanmasıdır (Brugmann, 1904). Bu zaman dil elementləri obyektləri birbaşa adlandırmaqdan çox, *onlara işarə etmə (pointing function)* funksiyasını yerinə yetirir.

Onun yanaşmasına əsasən:

- Deyksis **situasiya mərkəzlidir** – yəni danışanın mövqeyi (origo) əsas götürülür
- Demonstrativlər (bu, o və s.) **məkan və məsafə fərqlərini** ifadə edir
- Dil vahidləri referenti yalnız kontekst daxilində müəyyən edir, yəni **referensiya situativdir**

Sonrakı tədqiqatlarda deyktik elementlər nitq situasiyasının koordinatlarını – danışan, adresat, zaman və məkanı – dil daxilində kodlaşdıran vasitələr kimi şərh olunur. Şəxssiz konstruksiyalar bu koordinatlarla qarşılıqlı təsirə girərək bəzən agenti silir, bəzən isə onu qeyri-müəyyən insan qrupu şəklində saxlayır.

Verilən mikromətn valentlik müxtəlifliyi ilə yanaşı, deyktik elementlərin və koqnitiv strukturlaşmanın diskurs daxilində necə fəaliyyət göstərdiyini aydın şəkildə nümayiş etdirir:

On this evening I was walking home from the censorship office from the Florida Hotel and it was raining. So about half-way home I got sick of the rain and stopped into Chicotes for a quick one… you were a little hungry all the time and would become suddenly and unreasonably irritated at things you could do nothing about such as the weather (Hemingway, 1971, s.314).

1. Diskurs baxımından təhlil

Diskurs səviyyəsində mətn aşağıdakı xüsusiyyətlərlə seçilir:

- *Koherens (məntiqi ardıcıllıq).* Hadisələr ardıcıl şəkildə inkişaf edir: *walking → rain → irritation → emotional reaction*. Bu ardıcıllıq oxucunun situasiya modelini mərhələli şəkildə qurmasına imkan verir.
- *Koheziya (bağlılıq)*: *"rain → sick of the rain → the weather*" eyni semantik sahənin təkrar aktivləşməsi. Bu, koqnitiv olaraq konseptual sahənin sabit saxlanmasına xidmət edir.
- *Ümumiləşdirmə (generic discourse):* "you were hungry". Burada "you" konkret şəxs deyil, ümumi insan təcrübəsini ifadə edir. Bu, diskursu fərdi təcrübədən çıxarıb kollektiv koqnitiv təcrübəyə çevirir.

2. Deyksis baxımından təhlil

Mikromətn **şəxs, zaman və məkan deyksisi** baxımından zəngin struktura malikdir:

- *Şəxs deyksisi - I, you*: Diskurs iştirakçılarını birbaşa müəyyənləşdirir. "I" konkret danışanı, "you" isə ümumiləşdirilmiş adresatı (generic reference) ifadə edir;
- *Zaman deyksisi - On this evening*: Hadisəni konkret zaman çərçivəsinə yerləşdirir. "This" göstəricisi situasiyanı danışanın perspektivindən təqdim edir;
- *Məkan deyksisi - home, from the Florida Hotel, into Chicotes*: Hərəkətin trayektoriyasını və məkan dəyişməsini göstərir.

Bu deyktik elementlər birlikdə diskurs üçün *referensial koordinat sistemi* yaradır və oxucunun hadisəni konkret situasiya daxilində qavramasına imkan verir. Bu yanaşma Teun A. van Dijk-in qeyd etdiyi kimi, diskursun mental model əsasında qurulması ilə bağlıdır.

3. Koqnitiv baxımdan təhlil

Mətn yalnız hadisələrin təsviri deyil, həm də onların *idrak səviyyəsində strukturlaşdırılmasıdır.*

- *I was walking* → **agentiv perspektiv**
- *I got sick of the rain* → **experiencer perspektiv**
- *you were hungry* → **ümumiləşdirilmiş insan təcrübəsi**

Bu isə göstərir ki, diskurs obyektiv reallıqdan çox, subyektiv təcrübənin modelləşdirilməsidir. Ronald Langacker-in yanaşmasına uyğun olaraq, burada dil hadisəni sadəcə təsvir etmir, onu müəyyən perspektivdən profilləşdirir.

Eyni zamanda, "*it was raining"* konstruksiyasında agent yoxdur, lakin hadisə və experiencer (dolayı şəkildə) mövcuddur və situasiya koqnitiv modeldə tamdır. Bu, yuxarıda qeyd etdiyimiz kimi, *valentliyin sıfırlanması deyil, yenidən profilləşdirilməsidir.*

Aşağıda verilən digər mikromətn, həmçinin, diskursun çoxqatlı strukturunu əks etdirərək leksik-sintaktik koheziya, deyktik göstəricilər və koqnitiv konseptuallaşma mexanizmlərinin qarşılıqlı fəaliyyətini nümayiş etdirir:

She had liked it. She said she loved it. She loved anything that was exciting, that involved a change of scene, where there were new people and where things were pleasant. And he had the illusion of returning strength of will to work. Now if this was how it ended, and he knew it was, he must turn like some snake biting itself because its back was broken. It wasn't this woman's fault. If it had not been she it would have been another. If he lived by a lie he should try to die by it. He heard a shot beyond the hill (Hemingway, 1971, s.282).

1. Diskurs və koheziya baxımından təhlil

Mətn daxilində sintaktik və leksik təkrarlar əsas koheziv vasitə kimi çıxış edir: *She had liked it. She said she loved it. She loved anything…* Burada "she" əvəzliyinin və "love" semantik sahəsinin təkrarı diskursun tematik mərkəzini formalaşdırır. Bu təkrarlar:

- referensial sabitliyi təmin edir;
- iştirakçıların diskurs daxilində izlənməsini asanlaşdırır;
- semantik fokusun qorunmasına xidmət edir.

Eyni zamanda, ikinci hissədə "he" əvəzliyinin dominantlaşması diskursun tematik istiqamətində dəyişiklik yaradır. Bu keçid diskurs daxilində perspektivin yenidən qurulmasına

səbəb olur və iki paralel semantik sahə formalaşdırır: emosional (she) və ekzistensial-psixoloji (he).

2. Deyksis baxımından təhlil

Mətnin deyktik sistemi əsasən şəxs və qismən məkan göstəriciləri üzərində qurulmuşdur:

- şəxs deyksisi: *she, he, it*
- məkan deyksisi: *beyond the hill*

Bu əvəzliklər konkret referentləri açıq şəkildə təqdim etməsə də, anaforik əlaqə vasitəsilə diskurs daxilində sabit referensiya yaradır. Anaforik təkrar: *she → she → she he → he → he* referensial ardıcıllığı qoruyaraq koqnitiv emal prosesini asanlaşdırır.

- Zaman deyksisi isə müxtəlif zaman formalarının qarşılıqlı fəaliyyəti ilə reallaşır: *had liked* (keçmişdən əvvəlki keçmiş), *knew* (keçmiş), *must turn* (modal-indiki perspektiv)

Bu zaman formalarının qarşıdurması diskursda temporal çoxqatlılıq yaradır və hadisələrin həm retrospektiv, həm də aktual qiymətləndirilməsinə imkan verir.

3. Koqnitiv baxımdan təhlil

Mətn iki əsas koqnitiv sahənin qarşılıqlı əlaqəsi üzərində qurulmuşdur:

- *Emosional konseptual sahə: She loved anything that was exciting…* Bu hissədə "she" experiencer rolunda çıxış edir və "love" predikatı vasitəsilə emosional vəziyyətin genişlənməsi müşahidə olunur. "Anything" əvəzliyinin istifadəsi emosional reaksiyanın ümumiləşdirilməsinə və konseptual genişlənməsinə səbəb olur.
- *Psixoloji-etik sahə: If he lived by a lie he should try to die by it.* Burada "he" həm agent, həm də experiencer rolunda çıxış edir. "Lie" anlayışı abstrakt konsept kimi təqdim olunur və daxili konfliktin əsasını təşkil edir. Bu struktur koqnitiv dissonansın dil vasitəsilə ifadəsi kimi qiymətləndirilə bilər.

Əldə edilmiş nəticələr şəxssizliyin yalnız mübtədanın formal şəkildə ifadə olunmaması ilə məhdudlaşmadığını göstərir. A-, T- və R-şəxssizlər arasındakı fərqlər agentivlik, mövzu mərkəzliliyi və referensiallığın müxtəlif dərəcələrdə zəiflədiyini təsdiqləyir. Bu nəticə Malchukov və Ogawanın (2011) semantik xəritə yanaşması ilə uyğunlaşır, lakin hazırkı təhlil həmin xüsusiyyətlərin diskurs daxilində sabit deyil, kontekstə görə yenidən təşkil olunduğunu da göstərir.

MAN-impersonals ilə 3PL-impersonals arasında müəyyən edilən fərq şəxssiz insan referensiyasının vahid semantik kateqoriya olmadığını nümayiş etdirir. MAN-formaları danışanı və adresatı əhatə edə bilən ümumiləşdirilmiş perspektiv yaratdığı halda, üçüncü şəxsin cəm formaları agenti kommunikativ mərkəzdən uzaqlaşdırır. Beləliklə, referentin qeyri-müəyyənliyi yalnız leksik-semantik xüsusiyyət deyil, həm də iştirakçıların diskursdakı məsafəsini tənzimləyən praqmatik strategiyadır (Cabredo Hofherr, 2017; Malamud, 2012).

Mikromətnlərin təhlili valentliyin yenidən profilləşdirilməsi fikrini empirik material üzərində dəstəkləyir. "It was raining" konstruksiyasında agent sintaktik səviyyədə mövcud deyil, lakin hadisənin məkan, zaman və təcrübə çərçivəsi diskursda qorunur. Buna görə şəxssiz konstruksiyanı bütün iştirakçı rollarının aradan qalxması kimi deyil, müəyyən aktantların fonlaşdırılması və konseptual diqqətin hadisəyə yönəldilməsi kimi izah etmək daha əsaslıdır (Langacker, 2008).

Nəticələr həmçinin deyktik vasitələrin şəxssiz konstruksiyaların interpretasiyasında yardımçı deyil, strukturlaşdırıcı funksiya daşıdığını göstərir. Şəxs, zaman və məkan deyksisi hadisənin koqnitiv koordinatlarını müəyyənləşdirir, anaforik təkrarlar isə referensial sabitliyi qoruyur. Bu müşahidə diskursun mental modellər vasitəsilə təşkil olunduğu fikrini dəstəkləyir (van Dijk, 2014).

Tədqiqatın məhdudiyyəti empirik materialın əsasən seçilmiş ədəbi mikromətnlərə və keyfiyyət yönümlü interpretasiyaya əsaslanmasıdır. Buna görə nəticələr tezlik və janr paylanması haqqında statistik ümumiləşdirmə kimi qəbul edilməməlidir. Sonrakı araşdırmalarda müxtəlif dövrləri və registrləri əhatə edən balanslaşdırılmış korpusdan istifadə olunması, şəxssiz konstruksiyaların tezlik göstəricilərinin və diskurs funksiyalarının müqayisəli şəkildə ölçülməsi məqsədəuyğundur.

Verilmiş mikromətn təhlillərində də görünür ki, təkrarlar, anaforalar, zaman qarşıdurmaları və deyktik elementlər şəxsin konseptuallaşdırılmasına kömək edir. Burada şəxssizlik mütləq "şəxsin olmaması" demək deyil; çox vaxt o, şəxsin qeyri-birbaşa və diskurs vasitəçiliyi ilə qurulması deməkdir. Bu baxımdan impersonal konstruksiyalar koqnitiv iqtisad, informasiya bölgüsü və emosional məsafələndirmə vasitəsi kimi şərh oluna bilər.

Aparılan tədqiqat göstərir ki, şəxssiz konstruksiyalar yalnız sintaktik fenomen kimi deyil, eyni zamanda koqnitiv, diskursiv və semantik mexanizmlərin qarşılıqlı təsiri nəticəsində formalaşan kompleks dil hadisəsi kimi çıxış edir. Bu konstruksiyalar ənənəvi olaraq subyektin, xüsusilə agentin zəiflədilməsi və ya arxa plana keçirilməsi ilə izah olunsa da, müasir yanaşmalar onların funksional və konseptual çoxşaxəliliyini ön plana çıxarır.

Tədqiqat çərçivəsində A-, T- və R-impersonalların fərqləndirilməsi göstərir ki, şəxssizlik vahid kateqoriya deyil, əksinə agentivlik, topicality və referensiallıq kimi xüsusiyyətlərin mərhələli zəifləməsi əsasında təşkil olunan semantik sahədir. Bu yanaşma impersonal konstruksiyaların diskurs daxilində müxtəlif funksional rollar yerinə yetirdiyini sübut edir. Xüsusilə, T-impersonalların keçid xarakteri onların həm agentiv, həm də referensial strukturlar arasında körpü rolunu oynadığını göstərir.

MAN-impersonals və 3PL-impersonals arasında aparılan müqayisə isə onların diskurs funksiyalarının fərqli olduğunu üzə çıxarır. MAN-impersonals daha çox ümumiləşdirici və inklüziv xarakter daşıyaraq danışanı və adresatı diskursa daxil edir, halbuki 3PL-impersonals agenti diskursdan kənarlaşdıraraq məsafələndirmə yaradır. Bu fərq koqnitiv baxımdan diqqətin yönləndirilməsi və informasiya strukturunun təşkilində mühüm rol oynayır.

Valentlik nəzəriyyəsi kontekstində əldə olunan nəticələr göstərir ki, şəxssiz konstruksiyalar predikatın tələb etdiyi aktantların sayının dəyişməsi ilə xarakterizə olunur. Lakin bu dəyişiklik "valentliyin sıfırlanması" kimi deyil, daha çox "valentliyin yenidən profilləşdirilməsi" kimi izah edilməlidir. Belə ki, sintaktik səviyyədə ifadə olunmayan aktantlar koqnitiv səviyyədə mövcudluğunu qoruyur və situasiyanın konseptual strukturunda iştirak etməyə davam edir.

Mikromətnlərin təhlili bu nəzəri müddəaları empirik şəkildə təsdiqləyir. Birinci mikromətndə (*it was raining*) avalent konstruksiya sintaktik agentin olmamasına baxmayaraq, koqnitiv modeldə tam situasiyanın mövcudluğunu nümayiş etdirir. Eyni zamanda *I was walking, I got sick, you were hungry* kimi strukturlar agentiv və experiencer perspektivlərinin diskurs daxilində növbələşməsini göstərir. Bu isə dilin yalnız obyektiv reallığı deyil, subyektiv təcrübəni də modelləşdirdiyini sübut edir.

Deyktik elementlərin rolu da xüsusi əhəmiyyət daşıyır. Şəxs (*I, you*), zaman (*this evening*) və məkan (*home, Florida Hotel*) deyksisi diskurs üçün koordinat sistemi yaradır və hadisələrin situativ çərçivədə qavranılmasını təmin edir. Deyksisin bu funksiyası onun yalnız referensial deyil, həm də koqnitiv yönləndirici mexanizm olduğunu göstərir. Bu yanaşma Teun A. van Dijk-in diskursun mental modellər vasitəsilə qurulması ideyası ilə üst-üstə düşür.

İkinci mikromətnin təhlili isə diskursun koheziv və koqnitiv mexanizmlərini daha aydın şəkildə ortaya qoyur. "She" və "he" əvəzliklərinin təkrarı referensial sabitlik yaradır və iki paralel konseptual sahənin – emosional və psixoloji – formalaşmasına səbəb olur. Bu, diskurs daxilində perspektiv dəyişməsinin və tematik proqressiyanın əsas göstəricilərindən biridir. Eyni zamanda zaman formalarının qarşıdurması (had liked – knew – must turn) temporal çoxqatlılıq yaradaraq hadisələrin həm retrospektiv, həm də aktual aspektdə qavranılmasına imkan verir.

Metaforik strukturların (məsələn, *snake biting itself*) istifadəsi isə abstrakt psixoloji vəziyyətlərin konkret obrazlar vasitəsilə konseptuallaşdırıldığını göstərir. Bu, koqnitiv dilçiliyin əsas prinsiplərindən biri olan konseptual metafora nəzəriyyəsi ilə uyğunlaşır.

Ümumilikdə, aparılan təhlil göstərir ki, şəxssiz konstruksiyalar:

- sintaktik strukturların sadə reduksiyası deyil;
- diskurs daxilində informasiya bölgüsünü təşkil edən vasitədir;
- koqnitiv baxımdan diqqətin yönləndirilməsi və perspektivin dəyişdirilməsi funksiyasını yerinə yetirir;
- valentlik strukturlarının dinamik şəkildə yenidən təşkilinə imkan yaradır.

Nəticə: Beləliklə, şəxssiz konstruksiyalar dilin iqtisadi, funksional və koqnitiv potensialını əks etdirən mühüm vasitələrdən biridir. Onlar vasitəsilə dil istifadəçiləri agenti gizlədə, ümumiləşdirə və ya fonlaşdıraraq kommunikativ məqsədlərə uyğun şəkildə diskurs qururlar. Bu isə dilin yalnız struktur sistem deyil, həm də insan idrakının və sosial qarşılıqlı təsirin məhsulu olduğunu bir daha təsdiqləyir.

Ədəbiyyat siyahısı

1. Bekouche, M. (2024). Navigating cultural contexts: The role of deixis in Arabic translation and communication. Aleph, 11(4), 289–310. https://aleph.edinum.org/12354
2. Brugmann, K. (1904). Die Demonstrativpronomina der indogermanischen Sprachen: Eine bedeutungsgeschichtliche Untersuchung. Teubner.
3. Cabredo Hofherr, P. (2004). Impersonal pronouns in Somali, French and German [Conference handout]. Syntax of the World's Languages I, Leipzig, Germany.
4. Cabredo Hofherr, P. (2008). Les pronoms impersonnels humains: Syntaxe et interprétation. Modèles linguistiques, 57, 35–56.
5. Cabredo Hofherr, P. (2015). R-impersonal pronouns and distributivity [Conference presentation]. Colloque R-impersonnels, Paris, France. https://hal.science/hal-01673216
6. Cabredo Hofherr, P. (2017). Impersonal passives. In M. Everaert & H. C. van Riemsdijk (Eds.), The Wiley Blackwell companion to syntax (2nd ed.). Wiley Blackwell. https://doi.org/10.1002/9781118358733.wbsyncom031
7. Creissels, D. (2006). Syntaxe générale: Une introduction typologique (Vols. 1–2). Lavoisier-Hermès Science.
8. Creissels, D. (2024). Transitivity, valency and voice. Oxford University Press.
9. Croft, W. (2017). Morphosyntax: Constructions of the world's languages. Cambridge University Press. https://doi.org/10.1017/9781316145289
10. Evans, V., & Green, M. (2006). Cognitive linguistics: An introduction. Edinburgh University Press.
11. Goldberg, A. E. (2019). Explain me this: Creativity, competition, and the partial productivity of constructions. Princeton University Press. https://doi.org/10.1515/9780691183951
12. Heine, B., & Narrog, H. (Eds.). (2015). The Oxford handbook of linguistic analysis (2nd ed.). Oxford University Press.
13. Hemingway, E. (1971). Selected stories. Progress Publishers.
14. Holm, A. (2025). Perspective: Presence and distance through deictic expressions. In The stylistics of embodiment: Language and sensory memory in lyric texts (pp. 39–68). Springer. https://doi.org/10.1007/978-3-031-78230-5_2
15. Hopper, P. J., & Thompson, S. A. (1980). Transitivity in grammar and discourse. Language, 56(2), 251–299. https://doi.org/10.2307/413757
16. Kecskes, I. (2023a). Processing implicatures in English as a lingua franca communication. In The socio-cognitive approach to communication and pragmatics (pp. 295–314). Springer. https://doi.org/10.1007/978-3-031-30160-5_15
17. Kecskes, I. (2023b). The role of context in English as a lingua franca. In The socio-cognitive approach to communication and pragmatics (pp. 195–208). Springer. https://doi.org/10.1007/978-3-031-30160-5_10
18. Lakoff, G., & Johnson, M. (2003). Metaphors we live by (2nd ed.). University of Chicago Press.
19. Langacker, R. W. (2008). Cognitive grammar: A basic introduction. Oxford University Press.
20. Malamud, S. A. (2012). Impersonal indexicals: One, you, man, and du. Journal of Comparative Germanic Linguistics, 15, 1–48. https://doi.org/10.1007/s10828-012-9047-6

21. Malchukov, A., & Ogawa, A. (2011). Towards a typology of impersonal constructions: A semantic map approach. In A. Malchukov & A. Siewierska (Eds.), Impersonal constructions: A cross-linguistic perspective (pp. 19–56). John Benjamins. https://doi.org/10.1075/slcs.124.02mal

22. Pearson, H. (2023). Impersonal pronouns and first-person perspective. Annual Review of Linguistics, 9, 293–311. https://doi.org/10.1146/annurev-linguistics-031120-102547

23. Saeed, J. I. (2023). Semantics (5th ed.). Wiley Blackwell.

24. Šereikaitė, M. (2022). Impersonals, passives, and impersonal pronouns: Lessons from Lithuanian. Syntax, 25(2), 188–241. https://doi.org/10.1111/synt.12224

25. Sommerfeldt, K.-E., & Schreiber, H. (1977). Wörterbuch zur Valenz und Distribution deutscher Adjektive. VEB Bibliographisches Institut.

26. van Dijk, T. A. (2014). Discourse and knowledge: A sociocognitive approach. Cambridge University Press.

Gunay Mehraliyeva

Impersonal constructions from cognitive, discourse, and valency perspectives

Summary

This article investigates impersonal constructions from the perspectives of cognitive linguistics, discourse analysis, and valency theory. Its main aim is to demonstrate that impersonal constructions should not be treated merely as cases of syntactic reduction, but rather as instances of discourse-driven reprofiling of semantic participants. The study examines the functional and semantic properties of A-, T-, and R-impersonals, as well as the discourse and referential distinctions between MAN-impersonals and 3PL-impersonals. Particular attention is paid to deixis, cohesion, anaphoric relations, and thematic progression in the interpretation of impersonal constructions. The analysis of microtexts shows that even when agents or other actants are absent at the syntactic surface, their cognitive traces remain active and the conceptual structure of the situation is preserved. From this perspective, impersonality is better understood not as "valency deletion" but as "valency reprofiling." The findings suggest that impersonal constructions function as important devices for organizing information structure, managing perspective, and creating emotional distance in discourse. They therefore reflect not only grammatical patterning, but also the cognitive and functional nature of language use.

Keywords: *impersonal constructions, valency, discourse analysis, cognitive linguistics, deixis, referentiality, agentivity.*

Гюнай Мехралиева

Когнитивные, дискурсивные и валентностные особенности безличных конструкций

Резюме

В данной статье безличные конструкции рассматриваются в рамках когнитивной лингвистики, дискурс-анализа и теории валентности. Основная цель исследования заключается в том, чтобы показать, что интерпретация безличных конструкций не только как результата синтаксической редукции, но и как процесса репрофилирования семантических участников в дискурсе является более адекватной. В статье анализируются функционально-семантические особенности A-, T- и R-безличных конструкций, а также дискурсивные и референциальные различия между конструкциями типа **MAN-impersonals** и **3PL-impersonals**. Особое внимание уделяется влиянию дейксиса, когезии, анафорических связей и тематической прогрессии на интерпретацию безличных конструкций. Анализ микротекстов показывает, что, несмотря на отсутствие явного выражения агенса или других актантов на синтаксическом уровне, их когнитивные следы сохраняются, а концептуальная модель ситуации остаётся целостной. С этой точки зрения безличные

конструкции следует рассматривать не как «обнуление валентности», а как «репрофилирование валентности». В результате исследования установлено, что безличные конструкции являются важным средством регулирования распределения информации, выбора перспективы и выражения эмоционального дистанцирования в дискурсе, отражая как когнитивную, так и функциональную природу языка.

Ключевые слова: *безличные конструкции, валентность, дискурс-анализ, когнитивная лингвистика, дейксис, референциальность, агентивность.*

Çapa tövsiyə edən: ***Azərbaycan Dillər Universiteti***

Rəyçilər: ***dosent A.Allahverdiyeva***
dosent G.Əliyeva